## Vergi Məcəlləsinə 2016-cı ildən qüvvəyə minmiş dəyişikliklər barədə

# Bina tikintisi ilə məşğul olan şəxslərin sadələşdirilmiş vergiyə cəlb edilməsi

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər dedikdə özünə məxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və ya müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər başa düşülür.

***Vergi Məcəlləsinin dəyişiklikdən əvvəl qüvvədə olan müddəalarına əsasən mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər eyni zamanda həm sadələşdirilmiş verginin, həm də ƏDV-nin ödəyiciləri hesab olunurdular.***

***Vergi Məcəlləsinin 218-ci maddəsinə edilmiş dəyişikliklərə əsasən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərə sadələşdirilmiş verginin ödəyicisi olmaq və yaxud bu hüquqdan imtina etməklə ƏDV-nin, mənfəət (gəlir) vergisinin, əmlak vergisinin ödəyicisi olmaq hüququ verilmişdir.***

Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər:



1) ***sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etdikləri halda*** *tikinti-quraşdırma işlərinə başlandığı rübdə tikilən binanın sahəsinin hər kvadratmetri üçün 45 manata Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsallarını tətbiq etməklə sadələşdirilmiş vergi hesablanmalı və hesablanmış vergi bərabər hissələrlə 10 rüb ərzində dövlət büdcəsinə ödənilməlidir. Bu halda hüquqi şəxslər ƏDV-nin, mənfəət vergisinin və əmlak vergisinin, fiziki şəxslər isə ƏDV-nin və gəlir vergisinin ödənilməsindən azad edilirlər.*

2) ***sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə etmədikləri halda*** *onlar tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilmə dəyərindən ƏDV, təqdim etmədən əldə edilən gəlirləri ilə gəlirdən çıxılan xərc arasındakı fərqdən yaranan mənfəətdən mənfəət (gəlir) vergisi və həmin fəaliyyət prosesində istifadə olunan əmlaka görə əmlak vergisi (hüquqi şəxslər üçün) dövlət büdcəsinə ödənilməlidir.*

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər üçün, dövlətə ayrılan hissə istisna olmaqla, tikilən binanın yaşayış və qeyri-yaşayış sahələri (tikilən binanın hər mərtəbəsinin ümumi sahəsi), o cümlədən təqdim edilmək üçün ayrıca tikilən fərdi, şəxsi yaşayış və bağ evlərinin sahələri vergitutma obyektidir.

Bina tikintisi ilə məşğul olan şəxs binanın yaşayış və qeyri-yaşayış sahələrinin sadələşdirilmiş vergisini ayrılıqda hesablayır. Qeyri-yaşayış sahələrinə əlavə 1,5 əmsal tətbiq edilir.

✦ yaşayış sahəsi üzrə hesablama: binanın ümumi sahəsi—m² x 45 manat x zona əmsalı

✦ qeyri-yaşayış sahəsi üzrə hesablama: binanın ümumi sahəsi—m² x 45 manat x zona əmsalı x 1,5 əmsal.

| Zonalar | Zona əmsalı | 1 m² üzrə Baza məbləği | 1 m² üzrə Vergi məbləği |
|---|---|---|---|
| **Bakı şəhəri** | | | |
| Zona 1 | 4,0 | 45 manat | 180 manat |
| Zona 2 | 3,0 | | 135 manat |
| Zona 3, 4 | 2,2 | | 99 manat |
| Zona 5, 6 | 1,8 | | 81 manat |
| Zona 7, 8, 9 | 1,5 | | 67,5 manat |
| Zona 10, 11, 12 | 1,2 | | 54 manat |
| **Digər regionlar** | | | |
| Gəncə, Sumqayıt və Xırdalan | 1,5 | 45 | 67,5 manat |
| Abşeron rayonunun qəsəbə və kəndləri (Xırdalan şəhəri istisna olmaqla), Şirvan, Mingəçevir, Naxçıvan, Lənkəran, Yevlax, Şəki və Naftalan | 1,2 | | 54 manat |
| digər rayon (şəhər) və qəsəbələr (kəndlər) | 0,5 | | 22,5 manat |

**Misal 1:** *Tikinti fəaliyyəti ilə məşğul olan fiziki şəxs Kamran Hüseynov Sumqayıt şəhərində ümumi sahəsi 4000 m² (3000 m²—yaşayış və 1000 m² qeyri-yaşayış sahəsi) olan bina tikir. Onun ödəməli olduğu sadələşdirilmiş vergi və rüblük vergi öhdəliyi aşağıdakı kimi hesablanır:*

1) 3000 m² (Yaşayış sahəsi) x 45 manat (Baza məbləğ) x 1,5 (Zona əmsalı) = 202.500 manat

2) 1000 m² (Qeyri-yaşayış sahəsi) x 45 manat (Baza məbləğ) x 1.5 (Zona əmsalı) x 1.5 (Qeyri yaşayış əmsalı) = 101.250 manat

**3) (202.500 manat + 101.250 manat) : 10 = 30375 manat**

**Misal 2:** *Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən Bakı şəhəri üzrə 1-ci zonada (4,0 əmsal) ümumi sahəsi 10.000 m² olan bina tikilir. Layihə-smeta sənədlərinə əsasən tikiləcək binanın ümumi sahəsinin 8.000 m² yaşayış sahəsi, 2.000 m² isə qeyri-yaşayış sahəsindən ibarətdir.*

Şəxsin bina tikintisi fəaliyyəti ilə bağlı ödəməli olduğu sadələşdirilmiş vergi aşağıdakı kimi hesablanır:

*a) Yaşayış sahəsi üzrə: 8.000 m² x 45 manat x 4 (zona əmsalı) =1.440.000 manat;*

*b) Qeyri-yaşayış sahəsi üzrə 2.000 m² x 45 manat x 4 (zona əmsalı) x 1.5 əmsal=540.000 manat;*

**Cəmi ödənilməli vergi: 1.980.000 manat.**

Bu halda şəxs tikinti-quraşdırma işlərinin başlandığı rübdən sonrakı ayın 20-dən gec olmayaraq Vergilər Nazirliyinin müəyyən etdiyi forma üzrə vergi orqanına sadələşdirilmiş verginin bəyannaməsini təqdim edir və hesablanmış vergini bərabər hissələrlə hər rüb üçün 10 faiz həcmində, yəni 198.000 manat məbləğində olmaqla öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödəyir.

Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini göstərilən qaydada tikinti-quraşdırma işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq vergi orqanına bəyannamə təqdim edirlər.

**10 saylı Ərazi Vergilər İdarəsi.**

## Qəbələ Rayon Mədəniyyət və Turizm şöbəsi aşağıdakı maddələr üzrə katirovka sorğusu

## Elan edir

1. Dəftərxana xərci.
2. İdarənin digər xərcləri.
3. İstilik enerjisi (yanacaq) xərci.
4. Yumşaq inventar.
5. İnventar.
6. Avadanlıq.
7. Sair xərclər.
8. Digər maşın və avadanlıqlar xərc maddələri üzrə.

Katirovkalar **12 fevral 2016-cı il tarixədək** qəbul olunur.

**Tel:** (02420) 5-02-99, 5-09-84.

**Katirovka komissiyası.**

## Qəbələ Turizm İnformasiya Mərkəzi katirovka sorğusu elan edir

1. Sair xərc maddəsi üzrə.

Sorğular **12 fevral 2016-cı il tarixədək** qəbul olunur.

**Tel:** (02420) 5-02-99, 5-09-84.

**Katirovka komissiyası.**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi 2016-2017-ci tədris ili üçün Polis Akademiyasına əyani təhsil üzrə müdavimlərin qəbulunu

## Elan edir

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbula namizədlər Azərbaycan dilini sərbəst bilən, boyu azı 165 sm (qızlar üçün 160 sm), çağırışçı kimi Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli şöbələrində qeydiyyatda olan (qızlar istisna olmaqla), buraxılış siniflərində oxuyan və ya tam orta təhsilli, 16 yaşından 18 yaşınadək (cari ilin avqust ayının 1-dək 16 yaşı tamam olacaq və həmin ayın 31-dək yaşı 18-ə çatmamış) Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir. 2016-cı ilin aprel və iyul tarixli çağırışlarda hərbi xidmətə getməli olan çağırışçılar qəbul edilmirlər.

Abituryentlər DİN-nin xüsusi həkim komissiyasında müayinədən, habelə fiziki hazırlıq və seçmə komissiyalarında nazirlik tərəfindən müəyyən edilmiş normativlər üzrə sınaqdan keçməlidirlər.

İmtahanlar test üsulu ilə III qrup fənləri üzrə Azərbaycan və rus dilində keçirilir.

Qəbul imtahanlarının keçirilməsi ilə bağlı bütün təşkilati tədbirlər, sənədləşmə, imtahanın vaxtı, yeri və digər şərtlər Azərbaycan Respublikası Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən müəyyən edilir və abituriyentlər bu məqsədlə Komissiyanın internet saytında və ya kütləvi informasiya vasitələrində verilən elanları izləməlidirlər.

DİN-nin Polis Akademiyasına qəbul olunmuş abituriyentlər dövlət hesabına yataqxana, geyim forması, təqaüd və yeməklə təmin edilir, təhsil aldıqları müddətdə yataqxanada qalırlar. Akademiyada tədris Azərbaycan dilində aparılır, təhsil müddəti 5 ildir. Akademiya barədə ətraflı məlumat www. pa.edu. az internet saytında yerləşdirilmişdir.

Məzunlara «hüquqşünaslıq» ixtisası, «polis leytenantı» xüsusi və «ehtiyatda olan leytenant» hərbi rütbələri verilməklə daxili işlər orqanlarında müvafiq vəzifələrə təyin edilirlər.

Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul üçün namizədlər Qəbələ rayon polis şöbəsinə aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

—şəxsiyyət vəsiqəsi və doğum haqqında şəhadətnamə (əsli və notarial qaydada təsdiq olunmuş surəti).

—təhsil müəssisəsinin buraxılış sinifində oxuması haqqında DİN-nə təqdim olunması üçün arayış və ya tam orta təhsil haqqında sənəd (attestat),

—yaşayış yeri üzrə tibb müəssisəsindən DİN-nə təqdim olunması üçün sağlamlıq haqqında arayış,

—ilkin hərbi qeydiyyat alınma haqqında vəsiqə (əsli və notarial qaydada təsdiq olunmuş surəti),

—oxuduğu təhsil müəssisəsi tərəfindən DİN-nə təqdim olunması üçün verilmiş xasiyyətnamə,

—9x12 sm ölçüdə 2 ədəd, 4x6 sm ölçüdə 4 ədəd fotoşəkil (papaqsız, rəngli, donuq kağızda)

Ərizə və sənədlərin qəbulu 2016-cı ilin fevral ayının 1-dən mart ayının 10-dək (bazar günləri istisna olmaqla) hər gün saat 10-00-dan 17.00-dək Qəbələ Rayon Polis şöbəsində keçiriləcək.

**DİN Tel:** (012) 454-12-78

İnternet ünvanı: DİN- www. mia.qov.az.

(012)590-97-76

Polis Akademiyası-www.pa.edu.az.

Qəbələ RPŞ: (024) 205 18 28, (024) 205 18 22.

## ELAN

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 2001-ci il fevral ayının 26-da 03 saylı qərarla Qəbələ şəhər sakini **Mustafayev Çərkəz Dəmir oğlunun** adına verilmiş JN 207 F nömrəli (kodu 40601004) **Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.
Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611
«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2100.
Oxucu məktubları geri qaytarılmır.